Azərbaycan.- 2021.- 27 aprel. S. 5.

# Azərbaycanda koronavirusa 806 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1224 nəfər müalicə olunaraq sağalıb, 806 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 313 min 812 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 280 min 403 nəfər müalicə olunaraq sağalıb, 4402 nəfər vəfat edib. Aktiv xəstə sayı 29 min 7 nəfərdir.

Ötən müddətdə 3 milyon 195 min 268 test aparılıb. Dünənki test sayı isə 5732-dir.